MUSİQİ DÜNYASI 1/78 2019

# TARİYEL MƏMMƏDOV -70

Rəna MƏMMƏDOVA

Azərbaycan musiqisinin yorulmaz tədqiqatçısı, Əməkdar incəsənət xadimi, aşıqşünas-alim, professor, musiqi-ictimai xadim, pedaqoq, naşir Tariyel Məmmədov haqqında söz demək, fikir söyləmək çox fərəhli və şərəflidir. Belə ki, geniş və zəngin yaradıcılıq potensialına və çoxşaxəli elmi-ictimai fəaliyyətə malik olan Tariyel müəllimin adı milli musiqinin həm tədqiqatçısı, həm də təbliğatçısı kimi nəinki respublikamızda, hətta onun sərhədlərindən çox-



çox uzaqlarda da yaxşı tanınır. Alimin səsi Rusiya, ABŞ, Belorus, Litva, Özbəkistan, Tunis və digər ölkələrdə keçirilən beynəlxalq elmi konfrans və seminarlarından gəlir. Belə mötəbər və nüfuzlu elmi yığıncaqlarda o, hər zaman şifahi ənənəli milli musiqinin ən aktual problemlərinin işıqlandırılmasına həsr olunan maraqlı məruzələri ilə diqqəti cəlb edir.

Tariyel Məmmədovun musiqinin ən müxtəlif problemləri ilə bağlı fikirləri istər respublika, istərsə də xarici dövri və elmi nəşrlərində əksini tapmışdır. 100-dən artıq məqalənin, 10 monoqrafiya və broşürlərin müəllifi, lüğət və albomların tərtibçisi kimi tanınması ilə bərabər, onun elmi işlərə rəhbərlik etməsi və rəy verməsi, redaktorluq işini görməsi, mühazirələr oxuması daima fəal yaradıcılıq fəaliyyətində olmasından xəbər verir.

Qeyd olunduğu kimi,Tariyel Məmmədovun yaradıcılıq fəaliyyətinin əhatə dairəsi genişdir. O, elmi yaradıcılıqla pedaqoji təcrübəni və ictimai fəaliyyəti bacarıqla uzlaşdıraraq hər bir sahədə samballı söz deyə bilmək qabiliyyətinə malik olan peşəkarlıq nümayiş etdirir .

Mən 50 ilə yaxın bir dövr ərzində, hələ tələbəlik illərindən Tayiyel Məmmədovu geniş erudisiyaya, mükəmməl nəzəri biliyə, kreativ düşüncəyə malik olan professional səviyyəli mütəxəssis kimi formalaşdığını müşahidə etmişəm. Onun daima yeniliyə, novatorluğa cəhdi, çalışqanlığı, yüksək təşkilatçılıq qabiliyyəti, hər bir işə ciddi və məsuliyyətlə yanaşması, kommunikativliyi hələ tələbəlik illərindən özünü parlaq göstərmişdir.

Əgər biz onun elmi irsinə müraciət etsək bu sahədə böyük bir monoqrafik təhlilin aparılmasına ehtiyac olduğunu görərik. Həqiqətən, Tariyel Məmmədovun Azərbaycan musiqişünaslığında aşıq sənətinin tədqiqi ilə bağlı dərin və əhatəli elmi





MUSİQİ DÜNYASI 1/78 2019

axtarışları milli musiqinin genetik əsaslarının öyrənilməsi istiqamətində mühüm nəticələrin əldə olunmasına geniş imkanlar açmışdır. Onun 1983-cü üldə "Koroğlu dastanın epik havaları" mövzusunda namizədlik dissertasiyasının Moskvada uğurlu müdafiəsi bu sahədə araşdırmalarını davam etdirməyə stimul verir. Bu tədqiqat işində müəllif ilk dəfə olaraq "Koroğlu" dastanında ifa olunan havaların quruluşu, musiqi və poetik dilinin qarşılıqlı əlaqəsi kimi nəzəri problemlərlə yanaşı, onların türk aşıq havaları ilə də uyğun və fərqli cəhətlərinin müqayisəli təhlilini aparır. Az bir vaxt ərzində, 1989-cu ildə Tariyel Məmmədovun "Azərbaycan aşıqlarının ənənəvi havaları" adlı dokrorluq dissertasiyası meydana gəlir. Məhz bu işlərindən təkan alaraq o, sonrakı illərdə də türkdilli xalqların (Azərbaycan, türk, qazax, türkmən) aşıq havalarının müqayisəli-tipoloji tədqiqinə həsr olunan bir sıra maraqlı tədqiqatları ilə diqqəti cəlb edir.

Alimin elmi yaradıcılığında qırmızı xətlə keçən Azərbaycan aşıq sənətinin tədqiqi və öyrənilməsi problemlərinin əhatə dairəsinin getdikcə genişləndirilməsi və artım dinamikası müşahidə olunur. Bunu biz müəllifin "Azərbaycan klassik aşıq havaları" (2009), "Koroğlu aşıq havaları" (2010), "Azərbaycan aşıq yaradıcılığı" (2011), "Koroglu epic songs" (2013) monoqrafiyaları timsalında aydın izləyə bilərik.

Bütün bunlar alimin 40 ildən artıq aramsız elmi axtarışlarının, təhlil və araşdırmalarının nəticəsidir. Tariyel Məmmədov qarşısına qoyduğu mühüm problemlərin həllinə daima böyük zəhmət, dərin bilik, müasir elmin ən qabaqçıl və prioritet metodlarının mənimsəlinərək tətbiq edilməsi hesabına nail olur.

Alimin elmi irsini işıqlandıran, qiymətləndirən bir çox dəyərli rəylər verilmişdir. Lakin mən Tariyel Məmmədovun son illər Azərbaycan şifahi ənənəli musqisinin təbliği ilə bağlı apardığı iş və hazırladığı yeni layihələr haqqında bir neçə söz demək istərdim.

Bildiyimiz kimi, XXI əsrdə Azərbaycan ənənəvi musiqisinin öyrənilmə problemlərinin işlənilməsində xüsusi fəallığın yaranmasına musiqi mədəniyyətimizin dinamik inkişafı ilə bağlı olan mühüm hadisələr təkan vermişdir.

Ənənəvi klassik musiqi mədəniyyətimizə olan marağın artmasına Ulu öndər Heydər Əliyevin ənənələrini layiqincə davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin və Respublikanın birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanim Əliyevanın bu sahədəki fəaliyyətləri stimul vermişdir. Buna parlaq misal kimi muğam layihələri çərçivəsində həyata keçirilən beynəlxalq festivallar, elmi simpoziumlar, televiziya müsabiqələri, çap olunan müxtəlif nəşrlər (kitab, lüğət, ensiklopediya, albomlar) ola bilər. Bu sırada Azərbaycan muğamının və aşıq sənətinin UNESCO-nun mənəvi dəyərlər siyahısına daxil edilməsi Azərbaycan musiqi mədəniyyətinin əldə etdiyi böyük nailiyyətidir.

Belə mühüm və ciddi tədbirlər axınında Tariyel Məmmədovun da fəaliyyəti kənarda qalmamışdır. Onun Əməkdar incəsənət xadimi, professor Cavanşir Quliyevlə birgə tərtib etdikləri "İzahlı muğam lüğəti" layihəsinin hazırlanması önəmli olmuşdur.

"İzahlı muğam lüğəti" öz quruluşuna görə diqqəti cəlb edir. Burada əsas yeri muğam terminlərinin şərhi, terminlərin sözlüyü, dörd CD disk (53 kişi xanəndənin, 25 qadın xanəndənin ifasında muğam dəstgahı, təsnif və xalq mahnıları, zəbi muğamları) tutur.

Son illər ənənəvi musiqimizin öyrənilməsi və təbliği məqsədilə nəşr olunan kitablar maraqlı mədəni hadisə kimi qiymətləndirilir. Bu nəşrlər sırasında Tariyel Məmmədovun rəhbərliyi ilə ərsəyə gələn "İzahlı saz-söz Lüğəti" və "Azərbaycan ənənəvi musiqisi" albomu da özünəməxsusluğu ilə diqqəti cəlb edir.

T.Məmmədovun tərtibçisi olduğu "İzahlı saz-söz Lüğəti"ndə onun uzun illər şifahi ənənəli professional xalq musiqisinin spesifik qolu olan aşıq sənətinin öyrənilməsi və tədqiqi sahəsində əldə etdiyi elmi axtarışlarının nəticələri çox yığcam və dolğun şəkildə ifadəsini tapmışdır. Şübhəsiz, "Lüğət" Azərbaycan aşıq sənətinin əsas aspektlərinin populyarlaşması, geniş auditoriyaya yaxından tanıtdırmaq üçün dəyərli bir vasitədir. Bütövlükdə "İzahlı saz-söz lüğəti" aşıq sənətinin tarixi və nəzəriyyəsindən, onun xüsusi və ümumi məsələlərindən, regional və etnomədəni cəhətlərindən bəhs edən 600 məqaləni özündə toplayan və ensiklopedik xarakter daşıyan ilk nəşr olduğundan böyük əhəmiyyət kəsb edir.

Professor Tariel Məmmədovun rəhbərliyi altında hazırlanan digər nəşr - "Azərbaycan ənənəvi musiqisi" də olduqca böyük maraq doğurur. Bu albom, demək olar ki, dəqiq maarifçilik məqsədi daşıyır. Belə ki , burada muğam sənəti, aşıq sənəti və xalq musiqisi haqqında informativ xarakterli mətn Azərbaycan və bundan əlavə beş xarici dildə (ingilis, alman, fransız, rus və ispan) təqdim edilərək özünün yığcamlığı, lakin dəqiqliyi və konkretliliyi ilə Azərbaycan milli musiqi mədəniyyətinin zəngin tarixi kökə malik olduğunu nəzərə çatdırır və qiymətli təbliğat vasitəsi kimi təqdim olunur.

Tariyel Məmmədov üçün bu il ikiqat əlamətdardır. Bir tərəfdən yubiley ili, digər tərəfdənsə, 1999-cu ildən bu günədək naşiri və baş redaktoru olduğu, öz doğma ocağı sayılan "Musiqi dünyası" jurnalının təsis edilməsinin 20 illiyidir. Əlbəttə, "Musiqi dünyası" çap olunduğu vaxtdan bu günədək çoxaspektli fəaliyyət göstərərk Azərbaycan musiqi həyatı kontekstində mötəbər, tələb olunan, zəruri jurnal kimi şöhrət qazanmış və ilk multimediya layihəsinə çevrilmişdir. Bu gün artıq jurnalın dörd formatda (çap və internet jurnal, radio və televiziya versiyasə şəklində) fəaliyyəti onun daima inkişaf etməsini, genişlənməsini və artmasını sübut edir.

Bütün bunlarla bərabər jurnalın beynəlxalq əlaqələr sahəsində fəaliyyəti də genişdir. Məhz Tariyel Məmmədovun səyi nəticəsində jurnalın



Soldan: Əliqızı, A.Kerimli, L.Fərəcova, V.Adıgözəlov, L.Hüseynova, T.Məmmədov



T.Məmmədov və F.Bədəlbəyli



T.Məmmədov və V.Meduşevskiy



L.Məmmədova, T.Məmmədov və Ü.İmanova





dünyanın bir çox ali və elmi təhsil müəssisələri ilə - Britaniya kitabxanası, ABŞ Təhsil və Mədəniyyət Departamenti, İREX, Çaykovski adına Moskva Dövlət Konservatoriyası, Rusiya Elmlər Akademiyasının Fəlsəfə institutu və Sənətşünaslıq institutu, Qazaxıstan Dövlət Konservatoriyası və s. əməkdaşlığı getdikcə artır. Belə nailiyyətlərdən biri kimi "Musiqi dünyası" jurnalının 15 illiyi ilə əlaqədar "Sərhədsiz elm" məqalələr toplusunun nəşri olmuşdur. Kitabda çap olunan məqalələr ölkələrəmizin tarixinin postsovet dövründə musiqişünasların axtarışlarını nümayiş etdirir.

"Sərhədsiz elm" kitabı musiqişünaslığa mühüm töhfədir. Kitab Azərbaycan musiqi elminin mövqelərini obyektivləşdirir, tərəfdaşlıq perspektivlərini açır. Kitabın elmi diskursu - Rusiya və Azərbaycan alimlərinin birgə fəaliyyətinin əhəmiyyətindən ibarətdir.

Şübhəsiz, yorulmaz tədqiqatçı və baş redaktor kimi Tariyel Məmmədovun fəaliyyəti bununla məhdudlaşmır. Var qüvvəsini dissertant və doktorantların hazırlanmasına sərf edən alimin yetirmələri respublikanın ən nüfuzlu elmi-tədris

fəaliyyəti uzun illər Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasında "Xalq musiqisinin tarixi və nəzəriyyəsi" kafedrasında oxuduğu mühazirələrlə, 2015-ci ildən isə kafedraya rəhbərliyi ilə davam etdirilir.

Göründüyü kimi, Tariyel Məmmədov hansı sahədə çalışmasından asılı olmayaraq o, hər dəfə yeni söz demək, hamını təəccübləndirmək və maraqlandırmaq qabiliyyətini nümayiş etdirir . Bütün sahələrdə fəaliyyətində o, qarşısına bir məqsəd qoyur ki, bu da Azərbaycan mədəniyyətini, milli musiqi irsini istənilən vasitələrlə - kitab və ya məqalə, albom və ya disk, internet və ya canlı surətdə, fərq etməz, bütün dünyada tanıtmaqdan ibarətdir. Məhz beə əvəzsiz fəaliyyətinə görə müxtəlif mükafatlara layiq görülmüşdür.

Tariyel Məmmədov hər zaman öz amalına sadiq qalaraq seçdiyi yolunu layiqincə həyata keçirir. Bütün bu nailiyyətlərlə kifayətlətlənməyərək onun öz sənətini sevən və bu sənətə bütün həyatını həsr edən mücahid kimi bundan sonra da tutduğu çətin yolu yorulmadan davam etdirəcəyinə inanıram. Bu şərəfli və mənali fəaliyyət sahəsində Yolun